# “Multikulturalizmə alternativ yoxdur”

**“Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Eyni zamanda multikulturalizm Azərbaycanda həyat tərzidir...”**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Azərbaycandakı mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti ölkəni çoxmillətli, çoxkonfessiyalı diyar, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirmişdir. Bu gün həmin mədəni və etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

Azərbaycan Respublikasında hökm sürən etnik və dini tolerantlıq dünyaya bir nümunədir. Ölkəmizdə istər milli, istərsədə irqi ayrı-seçkilik yoxdur və heç vaxt da olmamışdır. Çoxmillətli Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, o cümlədən müxtəlif dinlərin təmsilçiləri arasında bir-birinə tolerant yanaşma mövcuddur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə deyib:

– İslam dinində tolerantlıq dinin əsas ünsürü kimi qəbul edilir. İslamın birinci əsas mənbəyi olan Quranda Uca Allah belə buyurur: “Sizin dininiz sizə, mənim dinim mənə aiddir” (Kafirun surəsi, 6). Bu ayədən də insanların müxtəlif inamda və fikirdə ola biləcəyi və həmin insanlara qarşı münasibətin necə formalaşacağı aydın görünür.

İslama görə tolerantlıq müxtəlif inanclı insanlar arasında bir körpüdür. Allah belə buyurur: “Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq...” (“Hücurat” surəsi, 13). İnsanların bir-birini tanıması, qarşılıqlı münasibətlərinin formalaşmasının əsası tolerantlıqdan keçir.

Tarixə nəzər salsaq görərik ki, dünyada Azərbaycan kimi keçmişini yaşadan çox az ölkə vardır. Dini tolerantlığın yüksək səviyyədə olması, xalqların bir məqsəd naminə birləşməsi, qurulan normal münasibətlərin eyni məqsədə yönəldilməsi tolerantlıqla bağlıdır.

Ölkəmizdə multikulturalizm və tolerantlıq dövlət siyasəti səviyyəsinə qaldırılıb və bu xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətidir. Onun siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə bərpa etdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasət ölkəmizdə hökm sürən siyasi sabitliyin, əmin-amanlığın, qarşılıqlı etimadın, xalqlar dostluğunun etibarlı qarantıdır.

Cənab Prezidentin rəhbərliyi ilə dini dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir, islam həmrəliyinin gücləndirilməsi və dini dəyərlərin müdafiəsi üçün beynəlxalq miqyasda işlər görülür. 2009-cu ildə Bakının “İslam mədəniyyətinin paytaxtı” elan olunması və 2018-ci ildə bu şans üçün Azərbaycanın ayrılmaz və qədim tarixə malik Naxçıvan şəhərinin seçilməsi, 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan edilməsi, 2017-ci ildə Azərbaycanda keçirilməsi nəzərdə tutulan İslam Həmrəylik Oyunlarının təşkili bu uğurlu siyasətin bariz nümunəsidir.

Bütün dövrlərdə tolerantlıq, etnik müxtəliflik Qərb dünyasına bağlı olan ölkəmizin tarixi, mədəni inkişafının göstəricisi olub. Təsadüfi deyil ki, Azərbaycanı Qərblə Şərqin qovuşuğunda yerləşən, sivilizasiyalararası münasibətlərin formalaşmasında böyük rola malik ölkə adlandırırlar. Ölkəmiz öz çoxəsrlik tarixinin bütün dövrlərində milli mənəvi zənginlikləri qorumaqla bəşəri dəyərlərə sadiqliyi Qərb dünyasına bəxş etdiyi korifeyləri ilə fərqlənmişdir. Dünyanın ən qədim abidələrindən olan 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Əsrlərlə yaşı olan Qafqaz albanlarının kilsəsi Şəki şəhəri yaxınlığındadır. Burada ölkəmizin paytaxtı Bakıdakı qədim islam mədəniyyəti abidələrini də qeyd etmək lazımdır. Yalnız İçərişəhərdə UNESCO tərəfindən dünya mədəniyyət inciləri siyahısına salınmış 1078-1079-cu illərdə inşa olunan “Həzrət Məhəmməd” məscidi, 1169-cu ildə inşa olunmuş “Aşur” məscidi, 1309-cu ildə inşa olunmuş “Gileyli” məscidi, 1899-cu ildə tikilmiş “Cümə” məscidi və qədim tarixi olan 20-dən çox digər məscidlər vardır. Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi mədəni irsimizin tərkib hissəsidir. Ölkədə siyasi sabitliyin təminatı, alternativ olmayan multikulturalizm üçün başlıca amil olan bu dəyərlər əvəzedilməz sərvətlərimizdəndir. Respublikamızda demokratiyanın əsas tələbləri olan insan hüquqlarının, söz, mətbuat azadlıqlarının qorunması dövlət siyasətinin əsas prioritetlərindəndir.

Multikulturalizm sahəsində dövlət siyasətinin bariz nəticəsidir ki, qədim məscidlərin təmir-bərpası ilə yanaşı, ölkəmizdə digər inanclara məxsus yeni ibadət mərkəzləri də tikilir. 1997-ci ildə Səbail rayonunda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və 1998-ci il iyulun 12-də özünün iştirakı ilə açılış mərasimi keçirilmiş Bibiheybət Ziyarətgah məscidi bu gün ölkəmizin ən gözəl dini ibadət yerlərindən biri olmuşdur. Prezident cənab İlham Əliyevin Sərəncam və tapşırıqlarına əsasən son illərdə Şamaxıda “Cümə” məscidi, Gəncədə İmamzadə Kompleksi əsaslı təmir olunmuş, Bakı şəhərində əzəmətli Heydər məscidi tikilib dindarların istifadəsinə verilmişdir. Bununla yanaşı, digər dini konfessiyaların da ibadət mərkəzləri dövlət tərəfindən əsaslı təmir olunur, yeniləri tikilir, icmaların fəaliyyətinə yardım göstərilir.

İllərdən bəri Ermənistanın hərbi təcavüzündən əziyyət çəkən Azərbaycanda separatizm, terror və ksenofobiya hallari qətiyyətlə pislənilir. Ölkəmizdə keçirilən bütün tədbirlərdə qeyd olunub ki, Azərbaycanda multikulturalizm ənənələri hər zaman güclü olub. Mənfur ermənilərin işğal etdikləri torpaqlarımızda yerləşən yaşayış mərkəzləri kimi mədəni və dini abidələrimizi dağıtmaları, bərbad hala salmaları faktları hamıya məlumdur. Lakin buna baxmayaraq, Bakı şəhərinin mərkəzində erməni kilsəsi tarixi abidə kimi qorunub saxlanmışdır. Bu da xalqımızın və dövlətimizin tolerant siyasətinin bir göstəricisidir.

Tolerantlıq özündən zəifə, yaxud bərabər olana eyni cür münasibət bəsləməyi bacarmaqdır. İslamın gəldiyi ilkin dövrlərdə müsəlmanlar tolerantlıq göstərdikləri kimi, güclü olduqları dövrlərdə də bu qaydadan heç vaxt uzaqlaşmayıblar.

Quran “Dində məcburiyyət (zorakılıq) yoxdur” (“Bəqərə” surəsi, 256) ayəsi ilə inanmaq azadlığının prinsipini formalaşdırıb. “Nə qədər istəsən də insanların əksəriyyəti iman gətirməzlər”, “Sən istədiyinə hidayət verə bilməzsən, ancaq Allah istədiyinə hidayət verər”, “Onlar iman gətirməyəcəklər deyə, bəlkə özünü həlakmı edəcəksən? (“Şüəra” surəsi, 3) kimi ayələr tolerantlığı seçimin insanın özünəməxsus olduğunu anlamaq üçün ən gözəl ayələrdir.

Multikulturalizm sahəsində həyata keçirilən dövlət siyasəti əsrlərdən bəri toplanmış böyük tarixi təcrübəyə əsaslanır və bu istiqamətdə qazanılmış uğurların dünya miqyasında təbliğinin güclənməsi zərurəti yaranıb. Azərbaycanda multikulturalizmin həyat tərzinə çevrildiyini beynəlxalq aləmdə nümayiş etdirmək dünyada humanizmin bərqərar olmasına, dini ayrı-seçkiliyin, məzhəblərarası qarşıdurmanın dayandırılmasına böyük töhfə olardı.

Qeyd etmək lazımdır ki, qloballaşan dünyamızda son zamanlar baş verən əksər münaqişələrin əsas səbəblərindən biri radikalizm, ekstremizm, məzhəb təəssübkeşliyi və insanlar arasındakı ayrı-seçkilikdir. Bu hallara az da olsa bizim də ölkəmizdə, o cümlədən Səbail rayonunda da rast gəlinir. Gəncləri müxtəlif adlar və maraqlarla öz sıralarına cəlb edən zərərli dini cərəyan nümayəndələri xalqımızın ailə dəyərlərinə, dini inanclarına, tolerant siyasətinə, ənənələrinə, müasir inkişafına xələl gətirir, onların bilikli, vətənpərvər, xalqımız üçün gərəkli övlad kimi böyüməsinə mane olur, kənar dövlətlərdə gedən münaqişə ocaqlarına cəlb olunmasına çalışırlar.

Bu cür hadisələrin yaranmaması üçün xalqı və birinci növbədə yeniyetmə və gəncləri maarifləndirmək, insanlar arasında tolerantlıq mədəniyyətini, birgə yaşayış ənənəsini daha da inkişaf etdirməyə böyük ehtiyac vardır. Gənc nəsli dini və milli əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyəti bütün cəmiyyətin üzərinə düşür. Gəncləri ekstremist təmayüllü dini cərəyanlara qoşulmaması üçün milli-mənəvi dəyərlərə, dövlətinə bağlı, sədaqətli, vətənpərvər tərbiyə olunması çox önəmlidir. Bu istiqamətdə işlərimiz və fəaliyyətimizin daha da genişləndirilməsinə ehtiyac vardır.

Bəllidir ki, əsrlər boyu milli dəyərlərini qoruyub saxlayan, müsəlman dünyasına mənsub Azərbaycanın Avropa ilə əməkdaşlığının güclənməsi ölkəmizi müasir, bəşəri ideyalara hörmətlə yanaşan dövlət kimi tanıtmışdır. Bu gün hər bir insan dərk etməlidir ki, öz ölkəsinin vətəndaşı olmaqla yanaşı, bəşəriyyət adlı bir ailənin də üzvüdür. Əgər biz sabahı düşünürüksə, gələcək nəsillər qarşısında öz məsuliyyətimizi dərk ediriksə, xalqlararası, millətlərarası münasibətləri də məhz etika və ədalət platformasında qurmağa çalışmalıyıq. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Çox təəssüf olsun ki, bəzi ölkələrdə belə humanist dəyərlərə etimadsızlıq göstərilir.

Azərbaycanda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, Avropanın ən mötəbər mahnı müsabiqəsi olan “Eurovision”un, I Avropa Oyunlarının böyük uğurla keçirilməsi sübut etdi ki, multikulturalizmin alternativi yoxdur. Bu yaxınlarda ölkəmizdə keçiriləcək “Formula-1” yarışması, gələn il keçiriləcək Dünya Şahmat Olimpiadası, İslam Həmrəyliyi Oyunları Şərq dəyərlərinə əsaslanan müsəlman aləminə qarşı yönəldilən fobiyaların əsassızlığını, multikulturalizmin yaşadığını Azərbaycanın timsalında aydın göstərəcəkdir.

Bunu Azərbaycana gələn çoxsaylı xarici nümayəndələr və turistlər də təsdiq edirlər. Sonda fikirlərimi Prezident İlham Əliyevin multikulturalizm haqqında dedikləri sözlərlə tamamlamaq istəyirəm: “Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Eyni zamanda multikulturalizm Azərbaycanda həyat tərzidir...”.

**Hacı Surxay MƏMMƏDLİ,**
**İçərişəhər “Cümə məscidi” dini icmasının sədri, axund.**